# RF İctimai Palatası Komissiyasının sədri Bakıdakı Rus Mədəniyyəti Mərkəzində olub

Rusiya İctimai Palatasının İctimai diplomatiyanın inkişafı və xaricdəki həmvətənlərə dəstək komissiyasının sədri Yelena Sutormina Bakıdakı Rus Mədəniyyəti Mərkəzində olub və Azərbaycan Rus İcmasının sədri, Milli Məclisin deputatı Mixail Zabelin ilə görüşüb.

RF İctimai Palatasının mətbuat xidmətinin verdiyi məlumata görə, bu görüş RF İctimai Palatasının nümayəndə heyətinin BMT Sivilizasiyalar Alyansının "İnklüziv cəmiyyət. Çağırış və məqsəd" devizi altında keçirilən VII Qlobal Forumunda iştirak etmək üçün Bakıya səfəri çərçivəsində təşkil edilib.

Y.Sutormina Rus Mədəniyyəti Mərkəzində Böyük Vətən müharibəsi veteranları ilə söhbət edib, Azərbaycan Rus İcmasının işinin istiqamətləri ilə tanış olub.

Yelena Sutormina forumun açılışında Azərbaycan Prezidenti İlham Əliyevin çıxışını qeyd edərək deyib: "Prezident İlham Əliyev öz nitqində millətlərarası və sivilizasiyalararası dialoqun əhəmiyyətini vurğuladı, Azərbaycanda dövlət siyasətinin əsasını təşkil edən multikulturalizm və inklüziv cəmiyyət barədə, kilsələrin və sinaqoqların yenidən qurulması və təmiri barədə danışdı. Forum çərçivəsində ictimai birliklərin və dini təşkilatların ekstremizmə və beynəlxalq terror qruplaşmalarına qarşı mübarizədə iştirakı məsələlərinə böyük diqqət yetirilməsi xüsusi əhəmiyyət kəsb edir".

Yelena Sutormina RF İctimai Palatasının xaricdə yaşayan həmvətənlər birlikləri ilə qarşılıqlı əlaqələr üzrə fəaliyyəti, Həmvətənlər Klubunun RF ictimai Palatasında keçirdiyi tədbirlər, "Russkiy uqolok" layihəsi barədə söhbət açıb.

O qeyd edib ki, İctimai Palatanın üzvlərinə Azərbaycan Rus İcmasının cari vəziyyəti və həyatı barədə məlumat verilib. Y.Sutormina deyib: "Rus İcmasının nümayəndələri qeyd etdilər ki, hazırda Azərbaycanda 120 min rus yaşayır, ölkədə təhsilin rus dilində aparıldığı 350 məktəb fəaliyyət göstərir, Azərbaycanda 16 min tələbə rus dilində ali təhsil alır. Azərbaycanın bütün əhalisinin Rusiya telekanallarına baxmaq imkanı var. Bundan əlavə, həmvətənlərimizin yaşadığı bütün bölgələrdə Rus İcmasının regional və yerli bölmələri - cəmi 48 təşkilat yaradılıb".

Onun sözlərinə görə, İctimai Palata bu görüşün nəticələrinə əsasən, "Russkiy uqolok" layihəsi çərçivəsində Bakıdakı Rus Mədəniyyəti Mərkəzinə dəstək verəcək.

Y.Sutormina deyib: "Biz Rusiya Sülh Fondu ilə birlikdə Rus Mədəniyyəti Mərkəzinin və Azərbaycan Rus İcmasının ehtiyacları üçün Bakıdakı "Russkiy uqolok" guşəsinə ofis avadanlığı və multimedia vasitələri göndərilməsini təşkil edəcəyik.

Tədbirdə İctimai diplomatiyanın inkişafı və xaricdəki həmvətənlərə dəstək komissiyası sədrinin birinci müavini Sergey Markov da iştirak edib.

*Fəridə ABDULLAYEVA,*
*AZƏRTAC-ın xüsusi müxbiri*

*Moskva*